# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 314** **Bakı şəhəri, 29 avqust 2020-ci il**

**"Bəzi malların ölkə ərazisindən aparılmasının müvəqqəti olaraq məhdudlaşdırılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 fevral tarixli 42 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bəzi malların ölkə ərazisindən aparılmasının müvəqqəti olaraq məhdudlaşdırılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 fevral tarixli 42 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 193, № 4, maddə 498; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 230 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissədə "sentyabrın 1-dək" sözləri "noyabrın 1-dək" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərara əlavə – "Yeni koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə ehtiyacların təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması məhdudlaşdırılan malların Siyahısı" üzrə:

2.1. 5-ci sətrin "Malın adı" sütununda "3001 və 3006 mal möv-qelərində" sözləri "3001, 3006 mal mövqelərində və 3005 90 100 0 alt yarımmövqeyində" sözləri ilə əvəz edilsin;

2.2. 12-ci sətrin "Malın adı" sütunundan "maskalar və" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 2 sentyabr.- S.6.